# Tarixdə iz buraxanlar: Əliağa Şıxlinski

**Əliağa Şıxlinski 1865-ci il aprelin 23-də Qazax şəhərinin Aşağı Salahlı kəndində anadan olub. Atası İsmayıl bəy, anası tanınmış şair Molla Vəli Vidadinin nəvəsi Şahyəmən xanımdır. Əliağa 1876-cı ildə Tiflis hərbi qimnaziyasının birinci sinfinə daxil olub, oranı 1883-cü ildə birinci şagird kimi bitirib. Gimnaziyanı bitirdikdən sonra təhsilini Sankt-Peterburqda, Mixaylovsk artilleriya məktəbində davam etdirən Əliağa bu məktəbdə də nəinki bacarıqlı şagird kimi, həm də əla süvari və gimnast kimi müvəffəqiyyət qazanıb.**

Qeyri-adi zəka sahibi Əliağa Şıxlinski 1886-cı ildə məktəbi podporuçik rütbəsi almaqla birinci dərəcə ilə bitirib.

Əliağa Şıxlinski xidmətinin birinci ilində pedaqoji təcrübəsini qazanıb, özünü artilleriya briqadasının tədris komandasının müəllimi kimi göstərib. 1900-cu ildə artıq kapitan rütbəsinə nail olan Şıxlinski Zabaykalye artilleriya divizionunun batareya baş zabiti vəzifəsinə təyin olunub. Sonra 1902-ci ildə müvəqqəti Peterburqa 6 aylıq kursa göndərilən Səməd bəy Mehmandarovun yerinə 2-ci batareya komandiri vəzifəsinin icraçısı təyin edilib. Daha sonra 4-cü Şərqi Sibir atıcı-topçu briqadasına təyin edilən Əliağa Şıxlinski 1904-1905-ci illər Rus-Yapon müharibəsində batareya komandiri kimi iştirak edib. Müharibənin gedişində Port-Artur qalasının müdafiəsi zamanı xüsusi şücaət göstərdiyinə görə 4 ordenə, podpolkovnik rütbəsinə və bir sıra qiymətli hədiyyələrə layiq görülüb.

Əliağa Şıxlinski müharibədən sonra 1905-ci ilin may ayında Odessa hərbi dairəsinin 15-ci artilleriya briqadasına, bir ildən sonra isə Tsarkoe Selodakı topçu zabitlər hazırlayan məktəbə göndərilib. 1906-cı ilin avqust ayında təhsilini başa vurub briqadaya qayıtsa da, 1907-ci ilin əvvəlində o, artilleriyadan dərs demək üçün yenidən həmin məktəbə dəvət olunub. 1908-ci ildə orada işləyərkən ona polkovnik rütbəsi verilib.

Əliağa Şıxlinskinin hərb elminin daha dərindən mənimsənilməsi üçün yazdığı, dərs vəsaiti kimi istifadə edilən "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri 1910-cu ildə çap olunub. Bundan əlavə, onun "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı hərbi yenilikləri topçu zabitlər üçün hazırlanan dərsliklərə daxil edilib. Bütün bu xidmətlərinə görə gənc hərbçi 1912-ci ildə general-mayor rütbəsinə layiq görülüb və 1914-cü ildə bir müddət Tsarskoe Selo topçu zabit məktəbinin rəisi vəzifəsini icra edib. Beləcə o, çar ordusunun aparıcı mütəxəssislərindən birinə çevrilib.

Əliağa Şıxlinski 1914-cü ilin sentyabr ayında baş verən Birinci dünya müharibəsi zamanı Petroqradın Artilleriya Hücumundan Müdafiəsi təşkilatının rəisi olub, 1915-ci ilin əvvəlində Şimal-Qərb cəbhəsi komandanının sərəncamına göndərilib və həmin ilin may ayında komandanın tapşırıq generalı vəzifəsinə təyin edilib. 1916-cı ilin aprel ayında Şıxlinskiyə Qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsi həvalə olunmuşdu. 1917-ci ilin aprel ayında general-leytenant rütbəsinə layiq görülən Şıxlinski həmin il sentyabrın 10-da Qərb cəbhəsi 10-cu ordusunun komandanı təyin edilib. Ancaq iki ay sonra Şıxlinski səhhəti ilə əlaqədar həmin vəzifədən azad olunaraq, Qafqaz hərbi dairəsinin ehtiyatına göndərilib.

Əliağa Şıxlinskinin rus ordusu sıralarındakı xidməti "Müqəddəs Stanislav" ordeninin hər üç dərəcəsi ilə, "Müqəddəs Anna" ordeninin hər dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir" ordeninin 2, 3 və 4-cü dərəcələri ilə, "Müqəddəs Georqi" ordeninin dördüncü dərəcəsi ilə, xarici orden və medallarla, qiymətli hədiyyələrlə ödülləndirilib.



Əliağa Şıxlinski 1917-ci il dekabr ayının 11-dən təşkilinə başlanan Müsəlman Korpusunun komandiri təyin edilib. Onun rəhbərliyi altında korpusun tərkibinə daxil olan iki piyada diviziyasının, xüsusi süvari briqadasının, iki nişançı-topçu briqadasının zabit-komanda heyəti formalaşdırılıb, azərbaycanlı əhali arasında çağırış işinin əsası qoyulub, qoşun hissələrində döyüş hazırlığı təşkil olunub, milli kadr hazırlığı üçün ilk hərbi məktəbin yaradılmasına cəhd göstərilib. Şıxlinski Qafqaz İslam Ordusunun tərkibinə daxil olan Azərbaycan qoşun hissələrinin və könüllü dəstələrinin döyüş fəaliyyətini izləmək və təşkil etmək üçün dəfələrlə cəbhə xəttinə gedib, 1918-ci ildə Bakının azad olunması əməliyyatının keçirildiyi dönəmdə şəhər ətrafındakı qərargahdan döyüşlərin idarə olunmasında bilavasitə iştirak edib.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Əliağa Şıxlinskini Vətənə qayıtmağa məcbur etdi. O, 1918-ci il dekabr ayının 29-da Azərbaycanın Xalq Cümhuriyyəti Hərbi nazirinin müavini təyin edildi, artilleriya və istehkamçı hissələrə, habelə hərbi-təhsil və texniki müəssisələrə, artileriya və istehkam anbarına nəzarət ona həvalə olundu. 1919-cu ilin əvvəllərində isə Şıxlinski qoşun hissələrinin, idarə və müəssisələrin ştatlarının maaş cədvəllərini hazırlayan komissiyanın sədri təyin edildi. Azərbaycan ordusunun şəxsi heyətinin geyim formasının layihəsini hazırlamaq da bu komissiyaya tapşırıldı.

Əliağa Şıxlinski 1919-cu il yanvar ayının 10-da Hərbi Nazirliyin Müvəqqəti Hərbi Şurasının üzvü təyin edilir və Hərbu Şuranın əsasnaməsini hazırlamaq ona tapşırılır. O, 1919-cu ilin yanvar ayında təsdiq edilən kiçik və böyük Hərbi Şuraların da üzvü idi. Böyük hərbi şura onun sədrliyi ilə toplaşırdı.

Əliağa Şıxlinski Türkiyənin Aydın vilayətində ermənilər tərəfindən törədilmiş qətliama məruz qalan minlərlə türk vətəndaşına yardım etmək məqsədilə yaradılan ianə komitəsinə sədrlik edib və bununla bağlı olaraq, 1920-ci il martın 16-da Azərbaycan vətəndaşlarına müraciət edib. Aprel işğalından sonra qısa müddət qırmızı ordu sıralarında xidmətini davam etdirən Əliağa Şıxlinski 1920-ci ilin iyun ayında bolşevik həbsinə məruz qalsa da, Nəriman Nərimanovun müdaxiləsi ilə həbsdən azad edilir. Əliağa Şıxlinski 1920-ci ilin avqust ayında S.Mehmandarov ilə birlikdə Baş qərargahda işləmək üçün Moskvaya göndərilərkən N.Nərimanov V.İ.Leninə belə yazmışdı: "...Biz onları Qərargahda işləmək üçün Sizin sərəncamınıza göndəririk, çünki hərbi mütəxəssis kimi onlar əvəzedilməzdir..." 1921-ci ilin yayında onların hər ikisi yenidən Azərbaycana qayıtmış və xalq hərbiyyə komissarlığına qəbul edilmişdi.

Əliağa Şıxlinski Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin sədr müavini, 1924-cü ildə Azərbaycanın birləşmiş hərbi məktəbinin rəis müavini, 1925-ci ildə Azərbaycan hərbi tərcümə kollegiyasının redaktoru təyin olunub. Səhhəti ilə əlaqədar 1929-cu ildə istefa verərək fərdi təqaüdə çıxıb.

Əliağa Şıxlinski bütün ömrü boyu hərbi xidmətdə oldu, çar ordusunda qulluq etdiyi vaxtda da, müstəqil Azərbaycanda hərbi işin möhkəm təməlinin qoyulmasında bütün varlığı ilə çalışanda da, nəhayət sovet rejiminin ciddi nəzarəti və təzyiqi altında işləyəndə də əsl hərbçi kimi qaldı. Əsgəri xidmətindən artilleriya generalı rütbəsinə qədər yüksələn bu insanın həyatında, taleyində çox şey dəyişdi, yalnız xidməti borca münasibəti, dəmir hərbi nizam-intizamı dəyişmədi. Əsgər Əliağa Şıxlinski ilə ordu generalı Əliağa Şıxlinski arasında bu iki sahədə fərq yalnız onun daşıdığı rütbədən ibarət oldu.

Əliağa Şıxlinski hərb elmini təcrübədə tətbiq etmək sahəsində nadir bir istedada malik idi. Əliağanın qəhrəmanlığı öz vətəninin şərəf və azadlığını müdafiə edən hər bir şəxs üçün nümunə olmalıdır.

Fitri istedada malik olan artilleriya generalı Əliağa Şıxlinski bütün varlığı ilə sevdiyi Azərbaycan xalqına ömrünün sonunadək sədaqətlə xidmət edib. Hərbi fəaliyyətində araşdırmalar aparıldıqda onun bir çox sahələrdə ilkin şəxs olduğunun şahidi oluruq. Yalnız general kimi vəzifəsini bitmiş hesab etməyən bu məşhur sərkərdə həm də hərb elminin görkəmli alimi idi. Hələ ötən əsrin əvvəllərində hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən "Şıxlinski üçbucağı"ndan təkcə Rusiyada deyil, Fransa, Avstriya, Norveç, İsveçrə və başqa ölkələrin artilleriya məktəblərində də dərslik kimi istifadə olunub. Əliağa Şıxlinski "Üçbucağı"nda artilleriya tarixində ilk dəfə topların gözə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib hazırlayıb və topların təkmilləşdirilməsi işinə bir sıra dəyərli yeniliklər gətirib. Hərb elminin mütəxəssisləri bu gün də etiraf edirlər ki, general Şıxlinski qeyri-adi fəaliyyəti ilə fərqlənən nadir hərbi mütəxəssislərdəndir. O, yeganə azərbaycanlıdır ki, Fransanın generallara məxsus "Legion ordeni" və zabitlərə verilən "Legion xaçı" ilə təltif edilib. Əliağa Şıxlinski generallar arasında ən yaxşı hərb alimi, alimlər arasında ən məşhur artilleriya generalı idi.

Əliağa Şıxlinski dünyada şöhrət qazanmış topçuluq elmi sahəsindəki nəsrləri və fəaliyyəti ilə yanaşı dil və ədəbiyyat məsələləri ilə də məşğul olurdu. Onun hər sözü, hər mühazirəsi dinləyicilərin qəlbinə çox asanlıqla yol tapırdı.

Hərb mütəxəssisi kimi tanınan Əliağa Şıxlinskinin dil, lüğətçilik, terminologiya məsələlərilə maraqlanması səciyyəvi haldır. Onun şəxsi arxivində mühafizə olunan "Zabitin dəftəri"ndəki qeydlərindən məlum olur ki, hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğətlə, terminologiya ilə maraqlanaraq bu sahədə gərgin axtarışlar aparıb. Uzun illər, 1879-cu ildən 1917-ci ilədək həyatının çox hissəsini Azərbaycandan uzaqlarda, yüksək hərbi dairələrdə, özgə məmləkətdə və başqa dil mühitində yaşamasına baxmayaraq, general doğma dilini, milli varlığını qoruyub saxlaya bilib. Orada Azərbaycan dilində mətbuat və nəşriyyat olmadığına görə "Rusca-Türkcə qısa hərbi lüğət"ini 1926-cı ildə Bakıda üç əlifba - rus, ərəb və latın əlifbası ilə nəşr etdirə bilib. Bununla da ilk dəfə Azərbaycanda hərbi lüğətin yaradıcısı olub. Məhz bu əvəzsiz xidmətinə görə general Əliağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral tarixli qərarı ilə Fəxri Fərmanla təltif olunub. Şıxlinskinin lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın Azərbaycan dilinə tərcümə olunmasında böyük əhəmiyyət kəsb edib. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranan orduda xidmət edən azərbaycanlı əsgər və zabitlər bu lüğətdən qiymətli vəsait kimi istifadə ediblər. Yəni o zamanlar Azərbaycan dilində hərbi terminologiyanın olmaması bu işdə çətinlik törədirdi. Əliağa Şıxlinskinin zəngin lüğətinin nəşri ilə həmin çətinlik aradan qaldırılıb. Nadir nüsxəyə çevrilən lüğət bu gün də misilsiz dəyərə malikdir.

İllər keçəcək, zaman, dövr dəyişəcək, amma məşhur sərkərdəmiz Əliağa Şıxlinskinin hərbi-elmi fəaliyyətinə, sərkərdəlik bacarığına münasibət dəyişməyəcək, yeni gələn nəsl onun hərbi biliyindən bəhrələnəcək, döyüş yolu ilə fəxr edəcək.

Vətənin, doğma Azərbaycanın şərəf və azadlığı yolunda igid bir sərkərdə kimi danılmaz xidmətləri olan artilleriya generalı Əliağa Şıxlinski doğma xalqının ehtiramına layiq bir şəxsiyyət idi.

Əliağa Şıxlinski 1943-cü ildə avqustun 18-də Bakıda vəfat edib və II Fəxri xiyabanda dəfn olunub. Dünyadan sonsuz köçməsinə baxmayaraq, bu gün onun qoyub getdiyi zəngin hərbi elmi irs vətənin gənc hərbçilər nəslinin yetişməsində əvəzsiz mənbədir.

Allah rəhmət eləsin.

***Fazil QARAOĞLU***
***professor***